Elmi Spektr

Açıq Elmi Platforma

# Tyutorluq Proqramı

(Tələbələr üçün)

Son 30 ildə Azərbaycanın elmi institutlarında araşdırma yox dərəcəsinə endirilmiş və buna bağlı olan elm təhsili də tənəzzül etmişdir. Elmin bir çox sahələrində təhsil prosesi imtahana hazırlığa çevrilmiş, fəaliyyətini dayandırmış laboratoriyaların fonunda quru, nəzəri, elmə və cəmiyyətə heç bir faydası toxunmayan rituallarla doldurulmuşdur. Bu təhsil sistemi artıq neçə nəsil tələbəyə elm təhsilinin əsasını təşkil edən praktiki təcrübəni verə bilməmiş, bu isə cəmiyyət daxilində çoxsaylı fəsadlara gətirib çıxarmışdır. **Elmi Spektr Tyutorluq Proqramı (ESTP)** Azərbaycanda oxuyan tələbələrin məhz belə bir praktika alması üçün yaradılmış proqramdır. Proqramın əsas məqsədi elmin müxtəlif sahələri üzrə çalışan mütəxəssisləri və Azərbaycandakı tələbələri, qeyri-funksional institutlardan müstəqil bir platformada, məhsuldar və qarşılıqlı faydalı əməkdaşlıq çərçivəsində bir araya gətirməkdir.

# Niyə?

• Tyutorların rəhbərliyi altında tələbələrin həyata keçirdiyi **3 aylıq** layihələr təşkil olunacaq. Bu müddət ərzində tyutor tələbə ilə həftədə **1.5 saatlıq görüşlər** keçirərək layihənin icrasına rəhbərlik edəcək.

• Layihələr əsasən tyutorlar tərəfindən təklif olunacaq və onların peşəkar maraq və fəaliyyət dairələrini əhatə edəcək. Müstəsna layihə ideyaları olan tələbələr layihələrini seçdikləri tyutorlara təklif edə biləcəklər.

• Layihələr elmi bütün sahələrini əhatə edəcək. Bunlara **təbiət elmləri** (fizika, kimya, biologiya və s.), **sosial elmlər** (sosiologiya, iqtisadiyyat, gender tədqiqatları, hüquq və s.), **formal elmlər** (riyaziyyat, kompüter elmləri, və s.), **tətbiqi elmlər** (tibb, mühəndislik, və s.) və **fəlsəfə** daxildir.

• Layihələr təcrübələrin aparıldığı, mövcüd datanın analiz olunduğu **tətbiqi** və yaxud mövcud ədəbiyyatın kritik şəkildə incələndiyi və tezislərin yazıldığı **nəzəri** layihələr formasında olacaq.

• Hər layihənin sonunda tələbə gördüyü işi təsvir və izah edən **hesabat** yazacaq və bu hesabat ESTP-nin saytında ictimaiyyətə açıq formada dərc olunacaq. Hesabatlar daha sonra toplu formatında nəşr olunacaq.

# Necə?

• **İxtisasınızla bağlı dəyərli praktika qazanmaq.** ESTP-nin yaranma səbəbi tələbələrə elmin müxtəlif sahələri üzrə dəyərli praktiki təcrübə qazandırmaqdır, çünki elm reallıqda maraqlı suallara verilmiş cavablar toplusu yox, cavabsız suallara cavab axtarma prosesidir. Prosesi anlamağın ən yaxşı yolu təkcə mühazirələrlə yetinmək yox, prosesdə birbaşa iştirak etmək, ona töhfə verməkdir.

• **Yeni insanlarla əlaqə qurmaq.** İştirak edən bütün tyutorlar öz sahələri üzrə ixtisaslı peşəkar insanlardır. İşlədiyiniz layihənin aid olduğu sahə üzrə davam etsəniz, proqram çərçivəsində birgə çalışacağınız insanlar gələcəkdə karyeranızı qurmaqda sizə çox böyük dəstək ola bilərlər.

• **Maraqlarınızı kəşf etmək üçün.** Həyatınızın geri qalan hissəsini nə ilə əlaqələndirəcəyinizi seçmək çətin işdir. ESTP elmi bütün sahələrindən insanları bir araya gətirdiyinə görə, fərqli layihələrə müraciət edə, müxtəlif sahələri kəşf edə bilərsiniz.

# Nə üçün?

• **Təbiət elmləri** (fizika, kimya, biologiya və s.), **sosial elmlər** (sosiologiya, iqtisadiyyat, gender tədqiqatları, hüquq və s.), **formal elmlər** (riyaziyyat, kompüter elmləri, və s.), **tətbiqi elmlər** (tibb, mühəndislik, dizayn, memarlıq və s.) və ya **fəlsəfə** sahələrindən birində təhsil almaqda olan tələbə

• Sahəsi üzrə kiçik layihələrdə iştirak etməkdə, təcrübələr aparmaqda, datanın toplanması və analizində və yaxud hansısa problemlərin həlli üçün yollar inkişaf etdirməkdə maraqlı olan və nəhayət, alınan nəticələri hamı üçün anlaşılan formada yazıya çevirməyə həvəsli olan şəxs

# Siz Kimsiniz?

• **Təbiət elmləri** (fizika, kimya, biologiya və s.), **sosial elmlər** (sosiologiya, iqtisadiyyat, gender tədqiqatları, hüquq və s.), **formal elmlər** (riyaziyyat, kompüter elmləri, və s.), **tətbiqi elmlər** (tibb, mühəndislik, dizayn, memarlıq və s.) və ya **fəlsəfə** sahələrindən birində çalışan peşəkarlar

• Sahəsi üzrə kiçik layihələr yazıb, onların icrasında iştirak edən, rəhbərlik edən və ya bunu etməyə marağı olan şəxslər

# Onlar Kimlərdir?

- **Maraqlı və keyfiyyətli iş ortaya çıxarmaq**. Bizim (və ümidvarıq ki, sizin) üçün uğurun ən əsas meyarı təşkil etdiyimiz işin keyfiyyətidir. Biz tənbəl qiymətlərə, standartlaşdırılmış imtahanların nəticələrinə deyil, işin keyfiyyətinə inanırıq. Keyfiyyətli işin tərifini vermək çətin olsa da, Potter Stewart-ın sözləri ilə desək, keyfiyyətin nə olduğunu "görəndə tanımaq olur." ("*I know it when I see it.*")

- **Layihənin uğurla icra olunması üçün israrla çalışmaq.** İştirak edəcəyiniz layihələrin böyük əksəriyyəti aktiv elmi tədqiqatların və praktiki çalışmaların bir hissəsi olacaq. Bu isə onları çətin və açıq-sonluqlu edəcək. Bu isə o deməkdir ki, heç bir nəticəyə asanlıqla varmaq mümkün olmayacaq. Belə layihələri həyata keçirmək üçün yorulmadan özü və layihəsi üzərində çalışan insanlar lazımdır.

- **Əskiklərinizi sərbəst şəkildə doldura bilmək.** ESTP praktiki bir proqram olduğuna görə burada tyutorlar sizə dərs deməyəcəklər. Layihəyə müraciət etdikdən sonra onu tyutorun rəhbərliyi altında, lakin böyük ölçüdə müstəqil şəkildə həyata keçirəcəksiniz. Bu o deməkdir ki, hər bir tələbə layihəni uğurla başa vurmaq üçün lazım olan bilik və bacarıqları sərbəst şəkildə araşdırıb öyrənərək əldə edəcək. Tyutorlar sizin üçün mühazirəçi yox, yolgöstərən olacaqlar. Ona görə də, indiyədək üzmədiyiniz dənizlərdə üzməkdən qorxmamalısınız.

# Gözləntilər

• Proqramdan əldə edəcəyiniz konkret şeylər bunlardır:

- İştirakınızı və layihəni uğurla başa vurduğunuzu təsdiqləyən **sertifikat**.
- Layihəni uğurla başa vurduğunuz təqdirdə, tyutordan **tövsiyyə məktubu**
- İxtisasınızla əlaqəli sahədə real dünyada istifadə edə biləcəyiniz **bacarıqlar**
- Layihəniz və ixtisasınızla bağlı akademik resurslara çıxış
- Müstəsna bir iş ortaya çıxara bilsəniz, kütləvi informasiya vasitələrində işinizin işıqlandırılması və nəticələri daha geniş auditoriyaya təqdim edəcəyiniz ictimai mühazirə şansı
- **Hesabatınızın** digər bütün işləri özündə cəmləşdirən topluda **dərc olunması**

# Daha konkret

**Elmi Spektr** 2016-cı ildə fundamental elmi ictimaiyyətə daha anlaşılan və maraqlı formada çatdırmağa çalışan elmi-kütləvi jurnal olaraq fəaliyyətə başlamış və zamanla təhsil problemləri ilə daha yaxından məşğul olan müstəqil bir platformaya çevrilmişdir. Bu gün fəaliyyətimiz daha çox elmi dərsliklərin tərcüməsi və müxtəlif növ azad elmi resursların yaradılması üzərində cəmləşib. Elmi Spektr özünü Açıq Elm (*Open Science*) hərəkatının bir hissəsi kimi görür, azad və açıq informasiyanın inqilabi potensialına inanır, bu potensialı reallaşdırmaq üçün yollar axtarır.

# Biz Kimik?

elmi-spektr.com/estp